# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı”nda dəyişiklik edilməsi barədə**

“Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 oktyabr tarixli 314 nömrəli Fərmanının 10.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 12-ci hissə üzrə:

1.1. beşinci abzasda “Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu” sözləri “Azərbaycan Elm Fondu” sözləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

“12-9/ Aqrar Sığorta Fondu”.

2. 15-ci hissənin üçüncü abzasında “15-2/” rəqəmləri “15-1/” rəqəmləri ilə əvəz edilsin və ikinci abzası ləğv edilsin.

3. Aşağıdakı məzmunda 17-ci hissə əlavə edilsin:

“**17. Xidmətlər**

17-1/ Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti

17-2/ Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti”.

4. Həmin Siyahıya Əlavə - “ELEKTRON SƏNƏDLƏRİN QEYDIYYATININ NÜMUNƏLƏRİ” üzrə:

4.1. 1.1-ci bənd üzrə:

4.1.1. dördüncü abzas ləğv edilsin;

4.1.2. “Qeydlər”in “2-15/ - 2 - göndərilən (dövlət orqanında (qurumunda) hazırlanaraq göndərilən) sənəd, 15 - sənədin ümumi çıxış (qeydiyyat) nömrəsi” abzasının sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və “3-2-15/ - 3 - daxili sənəd (3-1 - əmr, 3-2 - arayış, 3-3 - akt və s.), 15 - sənədin ümumi sıra (qeydiyyat) nömrəsi.” abzası ləğv edilsin;

4.2. 2-ci hissənin “Qeydlər”i üzrə:

4.2.1. hər iki halda “12 - müraciət edən şəxsin soyadının baş hərfi üzrə” sözləri “12 - daxil olmuş müraciətin” sözləri ilə əvəz edilsin;

4.2.2. birinci halda “3. 2022 - müraciətin qeydiyyat ili.” abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“4. Daxil olan müraciət bu Siyahının “Azərbaycan Respublikasının dövlət orqanlarına (qurumlarına) daxil olan vətəndaş müraciətlərinin əhatə etdiyi mövzuların indeksləri”ndə nəzərdə tutulmuş mövzulardan bir neçəsini əhatə etdikdə, qeydiyyat nömrəsində müraciətdəki birinci mövzunun indeksi göstərilir.”.

5. Bu Qərar 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 dekabr 2022-ci il

№ 462